**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2013-cü ildə görülmüş işlər barədə hesabat**

2013-cü il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək və sosial-iqtisadi məsələlərin həlli istiqamətində öz fəaliyyətini işçilərin əmək hüquqlarının qorunmasına, əmək haqlarının optimallaşdırılmasına, əmək qanunvericiliyinin təkmilləşdirilməsinə, əlillərin sosial müdafiəsinin gücləndirilməsinə, yoxsulluğun azaldılmaşına, sosial müdafiəyə ehtiyacı olanların həyat səviyyəsinin yüksəldilməsinə, əhali sakinliyinin və məşğulluğun inkişafına istiqamətləndirmişdir.

***<u>Əmək, məşğulluq və miqrasiya sahəsində</u>***

Respublikada 2013-ü ilin 1 sentyabr tarixindən minimum aylıq əmək haqqı 105 manat müəyyən edilmişdir. Operativ məlumatlara əsasən, respublikada 2013-cü ilin sonuna orta aylıq əmək haqqı təqribən 423 manata çatmışdır.

"Azərbaycan Respublikasında 2014-cü il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanunu ilə 2014-cü il üçün yaşayış minimumu ölkə üzrə 125 manat, əmək qabiliyyətli əhali üçün 136 manat, pensiyaçılar və uşaqlar üçün 103 manat məbləğində müəyyən edilmişdir. Bu göstəricilər 2013-cü ilin səviyyəsindən müvafiq olaraq 7,75%, 8,8%, 9,6% və 10,8% yuxarıdır. Halbuki həmin dövrdə minimum əməkhaqqının artımı 12,3% (105:93,5x100) olmuşdur. Başqa sözlə, minimum əmək haqqının ölkə üzrə yaşayış minimumuna olan nisbəti 2013-cü ildə 80,6% idisə, 2014-cü ildə bu göstərici 84%-ə qalxmışdır (qrafik 1).

**2020-ci ilədək ölkə üzrə minimum əmək haqqı və yaşayış minimumunun proqnozu**




**qrafik 1**

Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli Konvensiyasına və "Analığın mühafizəsi haqqında 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında" 183 nömrəli Konvensiyasına qoşulduğu üçün Nazirlik tərəfindən hazırlanmış "Azərbaycan Respublikası Əmək Məcəlləsinə dəyişikliklər edilməsi haqqında" qanun layihəsində Əmək Məcəlləsinin bu

Konvensiyaların tələblərinə uyğunlaşdırılması nəzərdə tutulur. Layihə aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış və Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Azərbaycan Respublikasının əmək qanunvericiliyinin Beynəlxalq Əmək Təşkilatının “İşə qəbul olunmaq üçün minimum yaş həddi haqqında” 138 nömrəli Konvensiyasının tələblərinə uyğunlaşdırılması barədə müvafiq qanun layihələri hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Sosial Hüquqlar üzrə Avropa Komitəsi Azərbaycan Respublikasının “Dəyişdirilmiş Avropa Sosial Xartiyası” üzrə məruzəsinə dair 2008-ci ildə təqdim etdiyi yekun rəyində Azərbaycan Respublikası Əmək Məcəlləsinin 241-ci maddəsinin (qadın əməyinin tətbiqi qadağan olunan iş yerləri və işlər barədə) “Dəyişdirilmiş Avropa Sosial Xartiyası”nın 20-ci maddəsində göstərilən qadın və kişilərə bərabər iş imkanları prinsipinə uyğun olmadığını qeyd etmişdir. Bu uyğunsuzluğun aradan qaldırılması məqsədilə “Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişikliklər edilməsi barədə” Qanun layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin tapşırığının icrası olaraq sosial partnyorların nümayəndəli orqanları - əmək və sosial məsələlər üzrə dövləti təmsil edən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, işçilərin ali nümayəndəli orqanı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və işəgötürənlərin ali nümayəndəli orqanı Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası “Azərbaycan Respublikasının Prezidenti yanında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın Əsasnaməsi”nin layihəsini təqdim etmişlər.

Respublikada qeyri-rəsmi məşğulluğun aradan qaldırılması və əmək münasibətlərinin əmək müqavilələri bağlanılmaqla rəsmiləşdirilməsi istiqamətində görülən işlərin davamı olaraq ölkə Prezidentinin tapşırığı əsasında bir sıra qanunvericilik aktlarının təkmilləşdirilməsi üzrə təkliflər hazırlanmış və aidiyyəti orqanlara təqdim olunmuşdur. Bu kontekstdə işçi qüvvəsinin leqallaşdırılması sahəsində müsbət nəticələr əldə etmiş Türkiyə və Belçika dövlətlərinin təcrübəsi öyrənilmişdir. Əmək müqavilələrinin vahid elektron bazada qeydiyyata alınması sisteminin qurulması məqsədilə müvafiq qanunvericilik aktlarına (Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, Vergi Məcəlləsinə və s.) dəyişikliklər edilməsi barədə qanun layihələri hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin “Minimum aylıq əmək haqqının artırılması haqqında” 31 avqust 2013-cü il tarixli, “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında” 21 avqust 2013-cü il tarixli, “Elmi dərəcələrə görə vəzifə maaşlarına əlavələrin artırılması haqqında” 14 sentyabr 2013-cü il tarixli, eləcə də dövlət qulluğunun xüsusi növünə aid olan ayrı-ayrı dövlət orqanlarının əməkdaşlarının əmək haqlarının artırılması barədə müvafiq Sərəncamlarının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 20-dən çox qərar və sərəncam layihəsi hazırlanaraq müvafiq qaydada təqdim edilmişdir.

Hesabat dövründə “Şəhər, qəsəbə və əhali yaşayan ərazilərdə qaz, su təchizatı və tullantı sularının axıdılması və yaşıllaşdırma təsərrüfatlarına aid olan fəhlə peşələrinin və işlərin Vahid Tarif-İxtisas Sorğu Kitabçası “nın “Su təchizatı və tulluantı sularının axıdılması” bölməsi və “Mədəni-maarif, turizm müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”na dəyişikliklər” hazırlanaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində Normativ Hüquqi Aktların Dövlət

Reyestrinə daxil edilmişdir. Hesabat dövründə "Teatr, konsert, sirk müəssisələrində olan fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası" hazırlanmışdır.

2013-cü il ərzində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması istiqamətində normativ hüquqi bazanın təkmilləşdirilməsi işləri davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"nın icrası üzrə Tədbirlər Planının 2.5-ci bəndinin yerinə yetirilməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikasında əməyin təhlükəsizliyi və sağlamlaşdırılması üzrə Milli Strategiya" layihəsi hazırlanmışdır.

2014-cü ilin İstehsalat təqvimi hazırlanaraq Nazirliyin saytında yerləşdirilmişdir.

"Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə əmək bazarının tələbləri nəzərə alınmaqla peşə təhsili sisteminin təkmilləşdirilməsi ilə bağlı rəqabət qabiliyyətli ixtisaslar üzrə kadrların hazırlanması, ölkə üzrə Vahid Karyera Qiymətləndirilməsi Sisteminin, eləcə də inzibati ərazi vahidləri üzrə Gənclərin Karyera Mərkəzlərinin yaradılması sahəsində beynəlxalq təcrübə öyrənilmiş, beynəlxalq ekspertlərin iştirakı ilə "Peşə və ixtisaslar üzrə proqnozlaşdırma" mövzusunda hesabat hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın icrası ilə əlaqədar əmək bazarının mövcud vəziyyəti tədqiq edilmiş, beynəlxalq təcrübə öyrənilmiş, problemlərin həlli istiqamətləri müəyyənləşdirilmiş, sosial müavinətlər sisteminin təkmilləşdirilməsi ilə bağlı araşdırmalar aparılmış, sistemin unifikasiyası, hazırda verilən sosial müavinətlərin sayına və məbləğinə yenidın baxılması üçün hesablama və təhlillər aparılmışdır. Yaşayış keyfiyyətinin (həyat səviyyəsinin) ölçülmısi üçün əhalinin vaxt büdcəsindən istifadəsi üzrə müayinənin keçirilməsi istiqamətində mövcud təcrübələr öyrənilmiş, icra komponentləri dəqiqləşdirilmiş, müvafiq metodologiya hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2011-ci il tarixli Sərancamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının icrası məqsədilə gənclər arasında məşğulluq və işsizlik, gənclərin cins və təhsil qrupları, iqtisadi fəallıq səviyyəsi və məşğulluq xidmətləri tərəfindən işə düzəldilmiş və işsiz statusu verilmiş gənclər barədə statistik məlumatlar araşdırılmış, əmək bazarının ümumi əhali və gənclər üzrə əsas sosial-iqtisadi göstəricilərinin 2020-ci ilə qədər tələb və təklifi, həmçinin məşğul gənclərin sayının dinamikası və proqnozu, eləcə də "Gənclər əmək bazarında" mövzusunda hesabat hazırlanmışdır.

"Birləşmiş Millətlər Təşkilatının İnkişafa Yardım üzrə Çərçivə Sənədi ((UNDAF) 2011-2015 Azərbaycan)"nə dair məlumat hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdir.

Yaşlaşma ilə bağlı Madrid Beynəlxalq Fəaliyyət Planının Regional İcra Strategiyasının 6, 8, 9 və 10-cu öhdəliklərinə dair müvafiq məlumat hazırlanmış və aidiyyət üzrə təqdim edilmişdir.

2013-cü il 1 dekabr tarixədək Dövlət Miqrasiya Xidməti tərəfindən rəy verilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyə 14048 müraciət daxil olmuşdur ki, onlardan 10029-u yeni, 4019-u isə ötən illər ərzində verilmiş iş icazələrinin

müddətlərinin uzadılması ilə bağlı olmuşdur. Daxil olmuş müraciətlərə baxılmış və ümumilikdə 12998 nəfər olmaqla 9194 nəfərə iş icazəsinin verilməsi, 3804 nəfərin isə iş icazələrinin müddətlərinin uzadılması məqsədəuyğun hesab edilmişdir. 1050 əcnəbiyə iş icazəsinin verilməsi məqsədəuyğun hesab edilməmişdir.

"Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"na uyğun olaraq müvafiq məlumatlar ümumiləşdirilərək təhlil olunmuş və həmin təhlilin nəticələri əsasında bu sahədəki işin əlaqələndirilməsi məqsədi ilə yaradılmış Komissiya tərəfindən 2014-cü il üçün iqtisadi fəaliyyət sahələri üzrə əmək miqrasiyası kvotasına dair təkliflər hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

Aparılan təhlillərlə müəyyənləşdirilmişdir ki, şəhər və kənd yerləri üzrə əhalinin iqtisadi fəallığının, məşğulluğun və işsizliyin səviyyəsi fərqlənir. Belə ki, əhalinin iqtisadi fəallığının, məşğulluğun səviyyəsi kənd yerlərində şəhər yerlərinə nisbətən yüksəkdir, işsizliyin səviyyəsi isə aşağıdır. Bu fərq kişi və qadınlar arasında da baş verir. Belə ki, iqtisadi fəallıq kişilər arasında daha çox müşahidə olunur. İşsizliyin səviyyəsi kişilər arasında 4,5 faiz, qadınlarda isə 6,4% təşkil edir.

2013-cü il ərzində məşğulluq xidməti orqanlarına müraciət etmiş cəmi 46667 nəfərdən 29390 nəfər münasib işlə təmin olunmuşdur (diaqram 1).

**2003-2013-cü illər ərzində işlə təmin olunanlar**

**diaqram 1**




Hesabat dövrü ərzində 2969 nəfərə qanunamüvafiq qaydada işsiz statusu verilmiş, 3200 nəfərə işsizlik müavinəti təyin edilmiş, 1480 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

Peşəyönümü işinin gənc nəslin gələcək taleyində, onların məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq orta ümumtəhsil məktəblərində şagirdlərə peşə və ixtisas seçimində köməklik göstərilməsi məqsədi ilə 2008-ci ildən başlayaraq Bakı şəhərində, 2009-cu ildən sonra isə Respublikanın bütün regionlarında orta ümumtəhsil məktəblərində Peşəyönümü metodiki kabinetlərin

yaradılmasına geniş təşkilati-metodiki dəstək göstərilmişdir. Həmin rayonların ərazisində fəaliyyət göstərən işəgötürənlərin və orta ümumtəhsil məktəblərinin pedaqoji kadrlarının iştirakı ilə müşavirələr keçirilmişdir. Qeyd olunanların nəticəsidir ki, 2009-cu ildə peşəyönümü məsləhətlərinə cəlb olunanların sayı 20882 nəfər olduğu halda, 2013-cü ildə 112135 nəfərə çatmışdır ki, bunlardan da 106155 nəfəri orta məktəblərin yuxarı sinif şagirdləri olmuşdur.

Bununla yanaşı peşəyönümü işinin kütləviliyini təmin etmək məqsədi ilə xüsusi internet səhifəsi yaradılmışdır (www.ses.gov.az/prof). Həmin səhifə üzərindən hər bir kəs peşəyönümü məsləhəti ala bilər.

2013-cü ilin may-iyun aylarında gənclərin şüurlu yaradıcı əməyə hazırlanmasında, onların düzgün ixtisas seçimi üçün istiqamətləndirilməsində valideynlərin rolunun əhəmiyyətini nəzərə alaraq “American Academy” MMC tərəfindən valideynlərə övladlarının gələcək peşə seçimində məsləhətlərin verilməsi məqsədi ilə respublikanın 32 şəhər və rayonunda, noyabr ayında isə Bakı şəhəri üzrə 33 orta ümumtəhsil məktəbində pedaqoji kadrların, yuxarı sinif şagirdlərinin və onların valideynlərinin iştirakı ilə peşəyönümü tədbirləri keçirilmiş, valideynlərə və şagirdlərə xüsusi metodiki vəsaitlər, bukletlər paylanılmışdır.

2013-cü il ərzində məşğulluq xidməti orqanları tərəfindən 4329 nəfər peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunmuşdur (diaqram 2). Onlardan 55%-i Tədris Mərkəzləri tərəfindən hazırlanmışdır. Kursu bitirənlərdən 60%-i qısa müddət ərzində öz məşğulluqlarını təmin etmişlər.

**2003-2013-cü illər ərzində peşə təlimi kurslarına cəlb olunanlar**




**diaqram 2**

Hesabat ili ərzində Bakı Regional Peşə Tədris Mərkəzi tərəfindən 1005 nəfər, Göyçay Regional Peşə Tədris Mərkəzi tərəfindən 585 nəfər, Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən isə 435 nəfər peşə hazırlığı kurslarına cəlb olunmuşdur. Bu kurslar əsasən xidmət sahəsi, ixtisaslı fəhlə peşələri, turizm sektoru, informasiya kommunikasiya texnologiyaları kimi sferaları əhatə etmişdir.Bundan əlavə, 204 nəfər “sahibkarlığın əsasları” peşə hazırlığı kurslarına cəlb olunmuşdur ki, onlardan da 92

nəfərini qadınlar təşkil etmişdir. Özunüməşğulluğun inkişaf etdirilməsi məqsədi ilə 734 nəfər qadın isə “bərbər-manikürçü”, “qənnadçı”, “dərzi”, “toxucu”, “çörəkçi”, “xalçaçı” və sair peşə kurslarına cəlb olunmuşdur.

Qadınlar arasında milli və xalq tətbiqi sənəti növlərinin inkişaf etdirilməsi məqsədilə 97 nəfər qadın “çörəkçi”, 36 nəfər “toxucu”, 82 nəfər “qənnadçı”, 92 nəfər “xalçaçı” peşə hazırlığı kurslarına cəlb olunmuşdur.

2011-2013-cü illərdə məhkumların cəzaçəkmə müəssisələrindən azadlığa buraxıldıqdan sonra qısa müddət ərzində işlə təmin olunmalarına dəstək vermək üçün Ədliyyə Nazirliyi ilə birlikdə Tədbirlər Planı təsdiq edilmişdir. Kurslar cəzaçəkmə müəssisələrinin nəzdində fəaliyyət göstərən Peşə Məktəblərində təşkil olunmuşdur.

Həmin kurslara 135 nəfər məhkum cəlb olunmuş, onlardan 100 nəfər kişi “Tornaçı”, “Elektrik qaz qaynaqçısı”, “Avtomobilin təmiri üzrə çilingər”, “Dülgər”, “Mebel quraşdırıcısı”, 35 nəfər qadın isə “Tikişçi”, “Dərzi”, “Bərbər” və s. peşə hazırlığı kursu keçmişlər.

Fəaliyyətdə olan Regional Peşə Tədris Mərkəzlərində qısa müddət ərzində 15 peşə və ixtisas üzrə modul proqramları əsasında müdavimlər hazırlanır. “Sosial Müdafiənin İnkişafı” Layihəsinin Modul Təlim Proqramları Komponenti çərçivəsində əmək bazarında daha cox tələb olunan 32 peşə üzrə modul təlimi proqramları hazırlanaraq Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş, daha 11 proqram Təhsil Nazirliyinə təqdim olunmuşdur. Layihə çərçivəsində Gəncə şəhərində Regional Peşə Tədris Mərkəzinin yaradılmasına başlanılmışdır.

Hesabat ili ərzində 1500 nəfərə yaxın vətəndaş aktiv məşğulluq tədbirlərindən biri olan haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Eyni zamanda “Əmək yarmarkaları”nın mütəşəkkil qaydada keçirilməsi üçün bir sıra işlər görülmüşdür.

Respublikanın 56 şəhər və rayonunda keçirilmiş yarmarkalarında 2185 müəssisə tərəfindən 18997 boş (vakant) iş yerləri təqdim olunmuş və bu iş yerlərinin hesabına 5181 nəfər işsiz vətəndaş münasib işlə təmin edilmiş, 469 nəfər peşə hazırlığı kurslarına, 319 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

Bununla yanaşı, hesabat ilində Bakı, Sumqayıt, Gəncə şəhərlərində və Lənkəran rayonunda məzun və tələbələrin işlə təmin olunmasına köməklik göstərilməsi, eləcə də məzunların və tələbələrin əmək bazarına inteqrasiyası məqsədi ilə “Karyerada ilk addım” devizi altında keçirilən tədbirlərə 277 müəssisə tərəfindən 2678 boş (vakant) iş yeri təqdim edilmiş və 181 nəfər münasib işlə təmin olunmuşdur.

Bakı şəhəri rayonlarında keçirilmiş mini əmək yarmarkalarında 479 müəssisə tərəfindən 4098 boş (vakant) iş yeri təqdim olunmuş, 821 nəfər işaxtaran və işsiz vətəndaş münasib işlə təmin edilmiş, 252 nəfər isə peşə hazırlığı kurslarına cəlb olunmuşdur.

2013-cü il ərzində Bakı, Sumqayıt, Naxçıvan, Gəncə və Mingəçevir şəhərlərində fəaliyyət göstərən “Əmək Birjaları” tərəfindən 4101 nəfər işsiz vətəndaş, o cümlədən 2261 nəfər qadın, 1975 nəfər gənc, 162 nəfər qaçqın və məcburi köçkün, 28 nəfər əlil müvəqqəti xarakterli işlərlə təmin olunmuşdur.

2013-ci il ərzində Bakı şəhərinin 11 rayonu ərazisində keşirilmiş 34 tədbir nəticəsində “Səyyar birja”lar tərəfindən geniş əhali kütləsi arasında peşəyönümü işi aparılmış, onlara məlumat xarakterli bukletlər və açıqcalar paylanmış, 12525 vakant iş yeri haqqında məlumat verilmiş, peşə və ixtisaslar üzrə tələb olunan bacarıq və vərdişlər

onlara izah edilmişdir. 1715 nəfər müvafiq qaydada qeydiyyata alınmış, onlardan 147 nəfəri peşə hazırlığı kurslarına yazılmış, 108 nəfər isə münasib işlə təmin olunmuşdur.

Respublikanın bütün şəhər, rayon məşğulluq mərkəzlərində, eləcə də aparıcı təhsil müəssisələrində 129 avtomatlaşdırılmış məlumat köşkü quraşdırılmışdır. Bununla yanaşı, işaxtaran və işsiz vətəndaşların müraciət edərək mövcud vakansiyalar, peşə hazırlığı, haqqı ödənilən ictimai işlərə cəlb olunma, eləcə də işsizlik müavinəti, peşəyönümü məsləhətləri barədə zəruri informasiyaları əldə etmələri məqsədilə peşə seçimi ilə bağlı onlayn testləşdirmə, məşğulluq orqanları vasitəsilə iş axtarışı, işsizlik müavinətinin məbləğinin hesablanması kalkulyatoru avtomatlaşdırılmış, peşə hazırlığı, əlavə təhsil və haqqı ödənilən ictimai işlərə cəlb olunmaq üçün müraciətin və sənədlərin qəbulu, işsiz statusunun verilməsi və işsizlik müavinətinin təyin edilməsi üçün müraciətin və sənədlərin qəbulu isə qismən avtomatlaşdırılmışdır.

## *Sosial müdafiə və sosial xidmət sahəsində*

2013-cü il ərzində aztəminatlı ailələrə dövlət sosial yardımı, çətin həyat şəraitində yaşayan şəxslərə (ailələrə) dövlət sosial xidməti, sosial müavinət, müxtəlif növ Prezident təqaüdləri və başqa növ sosial təminat məsələləri ilə bağlı normativ-hüquqi sənədlərin hazırlanması, pilot layihələrin işlənilməsi və tətbiqi, beynəlxalq təcrübənin öyrənilməsi, sosial təminat sisteminin təkmilləşdirilməsi istiqamətində müvafiq işlər görülmüşdür.

Dayanıqlı sosial müdafiə sisteminin yaradılıb möhkəmləndirilməsi, aztəminatlı ailələrin tam dövlət dəstəyi ilə təmin edilməsi , onların səmərəli əmək fəaliyyəti ilə məşğul olmaqla reabilitasiya edilməsi imkanlarının yaradılması məqsədilə 2012-ci ilin aprel ayından sınağına başlanılmış “Özünədəstək” proqramında iştirak edən 271 ailənin 15 faizi əmtəə və xidmətlərin istehsalı üzrə fərdi əməklə, 85 faizi isə şəxsi yardımçı təsərrüfatın inkişafı üzrə fəaliyyətlərini davam etdirirlər.

Ümumilikdə proqrama 355460 manat məbləğində vəsait xərclənmiş və proqram 2013-cü ilin avqust ayında yekunlaşdırılmışdır. Ümumi təhlilin nəticələrinə görə sosial reabilitasiyada iştirak edən ailələrin 92 faizi (249 ailə) “Ailənin fəaliyyət planı”nda qeyd olunan şərtləri və ailəni təmsil edən şəxslə bağlanmış “Sosial müqavilə”də əks olunmuş öhdəlikləri uğurla yerinə yetirmişdir.

“Özünədəstək” ünvanlı yardım mexanizminin respublika ərazisində tətbiq edilməsi məqsədilə “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanunu”nun layihəsi, həmçinin aktiv sosial proqramların idarə edilməsi üçün Nazirlik yanında “Sosial Dəstək Fondu”nun yaradılması ilə bağlı təkliflər paketi hazırlanmış və 2013-cü ilin yanvar ayında Nazirlər Kabinetinə təqdim edilmişdir.

Ehtiyac meyarının həddi barədə hazırlanmış proqnozlar əsasında 2013-cü il üçün ehtiyac meyarının həddi 93 manat, 2014-cü il üçün isə 100 manat məbləğində müəyyən edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Sağlamlıq imkanları məhdud uşaqlara və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara sosial xidmət göstərilməsi sahəsində əlavə tədbirlər haqqında" 09 yanvar 2013-cü il tarixli Sərəncamının icrası

olaraq 17 prioritet layihənin siyahısı təsdiq edilmiş və bu siyahıya əsasən Nazirliyin sifarişi ilə qeyri-hökumət təşkilatları tərəfindən layihələr icra edilmişdir.

Layihələr çərçivəsində 800 nəfərdən çox sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayan uşağa sosial-psixoloji xidmət, hüquqi xidmət, reinteqrasiya xidmətləri göstərilmişdir.

1400 nəfərə yaxın sağlamlıq imkanları məhdud uşağın sosial reabilitasiya ehtiyaclarını ödəmək üçün funksional qiymətləndirmə, aktiv terapiya, oyun terapiyası kimi müasir metodlardan istifadə etməklə, onların cəmiyyətə adaptasiya olunmasına köməklik göstərilmişdir.

Çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi, 3-12 yaş arası çətin həyat şəraitində olan uşaqların (tək valideynli, hər iki valideynini itirmiş, genişlənmiş ailənin himayəsində olan, birinin əlilliyi və ya xəstəliyi olan, digərinin və ya hər iki valideyninin daimi iş yerinin olmaması səbəbindən günün çox hissəsini (12-14 saatını) günəmuzd qaydada işləyən valideynlərin uşaqlarının) sosial kimsəsizliyinin profilaktikası və onların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması məqsədilə günərzi mərkəzlər yaradılmışdır. Günərzi mərkəzlərdə 240 nəfər uşağa qidalanma, müxtəlif dərnəklərə cəlb edilmə, asudə vaxtın səmərəli təşkili və ev tapşırıqlarının hazırlanmasına kömək edilməsi, gündəlik həyat vərdişlərinin aşılanması, qavrayış, emosional və fiziki inkişafa və sosial uyğunlaşmaya yardım, dərketmə bacarıqlarının inkişaf etdirilməsi kimi sosial xidmətlər göstərilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının 7.3-cü bəndinə əsasən "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə dair Dövlət Proqramı (2014-2020-ci illər)"nın layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları"na uyğun olaraq Akkreditasiya Komissiyası yaradılmış, "Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası üçün meyarlar" və "Akkreditasiya Attestatı"nın forması təsdiq edilmişdir.

Akkreditə olunmaq məqsədilə 8 qeyri - hökumət təşkilatının təqdim etdiyi sənədlərə Akkreditasiya Komissiyasında baxılmışdır.

"Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"nın icrası ilə bağlı "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2014-cü il üzrə Tədbirlər Planı" hazırlanmış və təsdiq edilmişdir.

Nazirlik yanında fəaliyyət göstərən İctimai Şuranın üzvlərinin iştirakı ilə Xaçmaz rayonunda sağlamlıq imkanları məhdud uşaqların inkişaf pozuntularının aradan qaldırılması istiqamətində reabilitasiya xidmətləri göstərən İcma əsaslı reabilitasiya Mərkəzinin fəaliyyətinə və "Özünədəstək" proqramının icra vəziyyətinin qiymətləndirilməsi məqsədilə proqrama cəlb olunmuş ailələrin yardımçı təsərrüfatlarına baxış keçirilmiş, vətəndaşlar tərəfindən daxil olmuş ərizə və şikayətlər araşdırılmışdır.

2013-cü ildə respublika üzrə 615516 nəfər ailə üzvü olan 140711 ailəyə ünvanlı sosial yardım təyin olunmuşdur. Təyin edilmiş işlər üzrə adambaşına düşən ünvanlı sosial yardımın orta aylıq məbləği 29,01 manat, hər bir ailə üzrə isə 126,88 manat təşkil etmişdir (cədvəl 1).

**Ünvanlı sosial yardım almış ailələr barədə məlumat**

| İllər | Ünvanlı sosial yardım almış ailələrin sayı | Bir ailəyə düşən orta aylıq məbləğ (manat) | Ünvanlı sosial yardım almış ailə üzvlərinin sayı | Bir nəfər ailə üzvünə düşən orta məbləğ (manat) | Əhalinin sayında ünvanlı sosial yardım alanların xüsusi çəkisi | Dövlət büdcəsindən ayrılmış vəsait (manat) | Xərclənmiş vəsait (manat) |
|---|---|---|---|---|---|---|---|
| 2006 | 48705 | 44,28 | 222380 | 9,7 | 2,6% | 39 000 000 | 9 988 055 |
| 2007 | 145907 | 80,03 | 675955 | 17,27 | 7,8% | 78 000 000 | 56 284 616 |
| 2008 | 163409 | 100,96 | 772631 | 21,35 | 8,8% | 127 500 000 | 127 366 549 |
| 2009 | 144844 | 113,30 | 676172 | 24,27 | 7,6% | 180 000 000 | 179 999 316 |
| 2010 | 122781 | 108,54 | 548853 | 24,28 | 6,1% | 180 000 000 | 180 000 000 |
| 2011 | 120478 | 106,45 | 544666 | 23,54 | 6% | 190 000 000 | 190 000 000 |
| 2012 | 133613 | 114,98 | 586804 | 26,18 | 6,35% | 207 000 000 | 199 848 016 |
| 2013 | 140711 | 126,88 | 615516 | 29,01 | 6,57% | 206 200 000 | 201487005 |

**Cədvəl 1**

2013-cü ilin sonuna 440572 nəfərə aylıq və birdəfəlik sosial müavinət, 35200 nəfərə isə Prezident təqaüdləri təyin olunmuşdur (cədvəl 2). Sosial müavinətlərin 74,4 faizi aylıq, 25,6 faizi isə birdəfəlik xarakter daşıyır. Sosial müavinət və təqaüd alan şəxslərin 95 faizinə ödəniş plastik kartlarla bankomat vasitəsilə həyata keçirilir.

**Aylıq və birdəfəlik sosial müavinət və Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün sayı və məbləği barədə məlumat**

manat

| İllər | Aylıq sosial müavinət alan şəxslər | Birdəfəlik müavinət alan şəxslər | Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alan şəxslər | Cəmi | Aylıq sosial müavinətlərin məbləği | Birdəfəlik müavinətləri n məbləği | Azəbaycan Respublikası Prezidentinin təqaüdününün məbləği | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **2006** | 259712 | 101677 | 2032 | 363421 | 58670908 | 2749319 | 4691070 | 66111297 |
| **2007** | 275402 | 97250 | 15307 | 387959 | 72150695 | 2913312 | 19717660 | 94781667 |
| **2008** | 287375 | 100172 | 29106 | 416653 | 90243051 | 3197780 | 25983684 | 119424515 |
| **2009** | 293528 | 102961 | 32931 | 429420 | 122681579 | 4383580 | 38186695 | 165251854 |
| **2010** | 297198 | 101075 | 33662 | 431935 | 130705173 | 5769809 | 39793741 | 176268723 |
| **2011** | 308831 | 122045 | 34446 | 465322 | 146300952 | 7881840 | 45542338 | 199725130 |
| **2012** | 317110 | 120735 | 35158 | 473003 | 173208982 | 8598770 | 49863975 | 231671727 |
| **2013** | 316800 | 123772 | 35200 | 475772 | 181698540 | 8674100 | 52464021 | 242836661 |

**Cədvəl 2**

2013-cü ildə aylıq və birdəfəlik sosial müavinət, təqaüd və kompensasiyaların ödənilməsi üçün 234,1 milyon manat vəsait xərclənmişdir.

"Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənc üzrə borcların tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 04 avqust

2008-ci il tarixli Fərmanının icrası ilə bağlı 2009-2013-cü illər ərzində 1548 nəfər vətəndaşa 5 milyon 875 min manat aylıq və birdəfəlik müavinət təyin olunub ödənilmişdir.

“Ermənistan Respublikasının müəssisələrində əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində dəymiş zərərə görə ödənc almaq hüququ olan qaçqın statuslu zərərçəkənlərə və ləğv edilmiş kolxoz və sovxozlarda əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərər çəkənlərə zərərə görə ödəncin əvəzinə aylıq kompensasiya verilməsi barədə” Nazirlər Kabinetinin qərarına əsasən 508 nəfər kompensasiya ilə təmin olunmuşdur.

“Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 3 iyul 2007-ci il tarixli və “Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına əlavələr və dəyişikliklər edilməsi haqqında” 26 oktyabr 2007-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanlarının icrası təmin edilmiş, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş, tibbi və sosial yardıma ehtiyacı olan 13997 nəfərə birdəfəlik pul müavinəti təyin edilib ödənilmişdir. 2013-cü il 01 oktyabr vəziyyətinə bu kateqoriyadan olan 5000 nəfər şəxsə həmin müavinət təyin edilmişdir.

2013-cü il ərzində Ramana Gənc Əlillərin Əmək və İstirahət evində, Müharibə və Əmək Əlilləri üçün Pansionatının yeni korpusunda əsaslı təmir və tikinti işləri başa çatdırılmışdır.

2013-cü ildə respublika üzrə 13657 nəfər tək ahıl vətəndaş və əlilə evlərində sosial-məişət xidməti göstərilmişdir.

2013-cü ildə 280 ədəd “Naz-lifan” markalı avtomaşınlar alınmış, növbədə dayanmış Qarabağ müharibəsi, 20 Yanvar və Böyük Vətən Müharibəsi əlillərinə verilmişdir.

2013-cü ildə 2231 nəfərə müxtəlif sanatoriya və kurortlara (o cümlədən, Mərdəkan Müalicə Pansionatına 558 ədəd) sanator-kurort putyovkası (yollayışı) verilmişdir.

Eyni zamanda 762 nəfər əlil Qəbələ rayonunda yerləşən “Duyma” istirahət mərkəzinə, 230 nəfər əlil isə Lənkəran rayonunda yerləşən “Palıdlı sahil” İstirahət mərkəzinə putyovka ilə təmin edilmişdir.

Nazirliyin sifarişi ilə ixtisaslaşdırılmış qeyri-hökumət təşkilatları tərəfindən 8 günərzi qayğı mərkəzi, 9 icma əsaslə reabilitasiya mərkəzi, uşaq qaynar xətti, məişət zorakılığı qurbanlarına yardım mərkəzi yaradılmış, 10 rayonda isə sağlamlıq imkanları məhdud uşaqlara səyyar sosial reabilitasiya xidmətləri göstərilmişdir.

2013-cü ildə Nazirliyə müraciət etmiş 62 nəfər insan alveri qurbanına müvafiq xidmətlər göstərilmiş, yardımlar edilmişdir. Zərərçəkmişlərdən 44 nəfəri Daxili İşlər Nazirliyi tərəfindən istiqamətləndirilmiş insan alveri qurbanı, 18 nəfəri isə müxtəlif qeyri-hökumət təşkilatları tərəfindən yönləndirilmiş potensial qurbandır.

Hesabat ilində Respublika üzrə əlillər haqqında vahid məlumat bazasının yaradılması istiqamətində işlər davam etdirilmiş, bunun nəticəsi olaraq 217 minə yaxın əlil barədə məlumatlar vahid məlumat bazasına daxil edilmişdir.

Avropa Qonşuluq Siyasəti və Tərəfdaşlığı çərçivəsində müxtəlif proqramlar (Tvinninq, TAİEX və SİQMA) çərçivəsində Azərbaycan Respubikasının sosial müdafiə sistemində mövcud olan qanunvericiliyin mərhələlərlə Avropa İttifaqına üzv olan dövlətlərin qanunvericiliyinə uyğunlaşdırılması həyata keçirilir.

2013-cü ilin martında Bakıda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Avropa İttifaqının TAİEX proqramı çərçivəsində «Əlilliyi olan şəxslərin tibbi-sosial ekspertizası və reabilitasiyası, qabaqcıl Avropa təcrübəsi və Azərbaycan üçün yeni çağırışlar» mövzusunda beynəlxalq seminar keçirilmişdir. Seminarda üç Avropa ölkəsindən olan beynəlxalq ekspertlər iştirak etmişdirlər.

Nazirlik tərəfindən "2013-2018-ci illərdə əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planı"nın layihəsi hazırlanaraq Nazirlər Kabinetinə göndərilmişdir.

## ***Əlilliyin təyin edilməsi və reabilitasiyası sahəsində***

2013-cü ilin ilkin məlumatlarına görə Tibbi-sosial ekspert komissiyaları tərəfindən 236716 nəfər şəxsə əlillik müəyyən edilmişdir. Bu şəxslərin 16,2 faizinə əlillik ilkin olaraq müəyyən edilmişdir (qrafik 2).




**qrafik 2**

Hesabat dövründə orta hesabla 183923 nəfər şəxs təkrar müayinə edilmiş və bunlardan 178630 nəfəri əlil hesab edilmişdir. Müayinə edilənlərdən 2,9 faizi tam reabilitasiya, 0,7 faizi isə hissəvi reabilitasiya olmuşdur. Ümumi reabilitasiya isə 3,4 faiz təşkil etmişdir.

2013-cü ildə orta hesabla 29423 nəfər sağlamlıq imkanları məhdud uşaq hesab edilmişdir. Bu şəxslərin 29,6 faizi ilkin, 70,4 faizi isə təkrar sağlamlıq imkanları məhdud uşaq kimi müəyyənləşdirilmişdir.

Əlil şəxslər hesabat dövründə orta hesabla 527 ədəd əlil arabası və 400 ədəd eşitmə aparatı ilə təmin edilmişdir.

Respublikada əlilliyin azaldılmasını şərtləndirən amillərdən biri əlillərin bərpa müalicəsinə son illər diqqətin artırılması ilə bağlıdır. Respublikada fəaliyyət göstərən 14 Əlillərin Bərpa Mərkəzində orta hesabla 6682 nəfər əlil bərpa müalicəsi almışdır. 2013-cü ildə ixtisaslaşmış müalicəyə ehtiyacı olan 35 nəfər əlilin Respublikadan kənarda - Krım vilayətinin Saki şəhərində yerləşən N.Burdenko adına Onurğa beyni zədələnmiş xəstələr üçün ixtisaslaşmış sanatoriyada 28 günlük bərpa-müalicəsinə göndərilməsi təmin edilmişdir. Həmçinin, ilk dəfə olaraq, ölkəmizdən qrup halında daha 30 nəfər əlil şəxs 20 günlük bərpa-müalicə kursu keçmək üçün Latviya Respublikasına göndərilmişdir.

2013-cü ildə Uşaq Bərpa Mərkəzində ”Sağlamlıq imkanları məhdud uşaqların psixo-fiziki inkişafına dəstək Mərkəzi” yaradılmış və 300 nəfərə yaxın sağlamlıq imkanları məhdud uşaqlara reabilitasiya xidməti göstərilmişdir.

Sentyabr ayında Respublikada ilk dəfə olaraq 79 nəfər sağlamlıq imkanları məhdud uşaq Ukraynanın Yevpatoriya şəhərində yerləşən “Uşaq Klinik Sanatoriyası”na reabilitasiya müalicəsinə göndərilmişdir.

İdman tədbirlərinin keçirilməsi və əlillərin beynəlxalq yarışlarda iştirakına şərait yaradılması məqsədi ilə Paralimpiya və Xüsusi Olimpiya Komitələrinə maliyyə vəsaiti ayrılmışdır.

Əlillərin və sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya olunması məqsədi ilə cari ildə Əlillərin VI Ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsi keçirilmişdir.

Baxış-müsabiqənin birinci mərhələsində respublikanın ayrı-ayrı bölgələrində yaşayan və baxış-müsabiqədə iştirak etmək arzusunda olan 524 nəfər istedadlı əlilin və sağlamlıq imkanları məhdud uşağın müsabiqədə iştirakı təmin olunmuş, zona baxış-müsabiqələrinin qalibləri - 134 nəfər, o cümlədən, 86 nəfər əlil şəxs və 48 nəfər sağlamlıq imkanları məhdud uşaq Əlillərin VI Ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsinin final mərhələsində iştirak etmək hüququ qazanmışdır.

26-28 noyabr 2013-cü il tarixlərində zona qaliblərinin iştirakı ilə Teatr Xadimləri İttifaqının Aktyorlar evində Əlillərin VI Ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsinin final mərhələsi keçirilmişdir.

30 noyabr 2013-cü il tarixində Gənc Tamaşaçılar Teatrında Əlillərin VI Ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsinin qaliblərinin iştirakı ilə yekun konserti keçirilmişdir.

20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar 434 nəfər əlil və şəhid ailəsinə, Çernobıl qəzasının ildönümü ilə əlaqədar həmin qəzada xəsarət almış 500 nəfər əlilə, 9 May faşizm üzərində Qələbə günü münasibəti ilə bir qrup müharibə veteranına birdəfəlik maddi yardım edilmişdir.

3 dekabr - Beynəlxalq əlillər günü münasibətilə sosial müdafiəyə daha çox ehtiyacı olan 4250 əlilə birdəfəlik maddi yardım edilmiş, ağıldankəm uşaqlar üçün internat evlərində, müharibə və əmək əlilləri üçün pansionatda “Fərqliyik–bərabərik” devizi altında musiqili-əyləncəli tamaşalar təşkil edilmişdir.

Sosial vəziyyəti çətin olan 233 nəfər əlilin sosial-məişət problemlərinin həll edilməsinə müvafiq maddiköməklik göstərilməsi təmin olunmuşdur.

Gözdən əlil insanların informasiya tələbatını ödəmək məqsədi ilə kitabxana fondlarının xüsusi nəşrlərlə komplektləşdirilməsi məqsədilə audio nəşrlərin və Brayl əlifbası ilə nəşrlərin çap olunması təmin edilmişdir.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə, Xaçmaz və Qax şəhərində 4 mərtəbəli 36 mənzilli yaşayış binalarının tikintisi başa çatdırılaraq, təhvil verilmişdir.

## ***Əmək qanunvericiliyinə dövlət nəzarətinin həyata keçirilməsi***

2013-cü il ərzində 8546 müəssisə, idarə və təşkilatda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına dövlət nəzarəti həyata keçirilmişdir. Bu müddət ərzində vətəndaşlardan daxil olmuş 3810 şikayət məzmunlu ərizə və müraciət, müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş 1081 ədəd müxtəlif xarakterli sorğular araşdırılaraq cavablandırılmışdır.

Həyata keçirilən dövlət nəzarəti və vətəndaşların müraciətlərinin araşdırılması zamanı 14943 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin pozulduğu aşkar edilmişdir. Həmin hüquq pozuntularının aradan qaldırılması üçün işəgötürənlərə icrası məcburi olan göstərişlər verilmiş və icrası nəzarətə götürülmüşdür.

Yol verilmiş hüquq pozuntularının təhlili göstərmişdir ki, bütün pozuntuların 10%-ni əməyin mühafizəsinin tibbi-sosial məsələləri, 37%-ni əmək müqavilələrinin bağlanmaması və ya onun şərtlərinin yerinə yetirilməməsi, 10%-ni texniki təhlükəsizlik qaydalarına əməl edilməməsi, 6%-ni əmək haqqının hesablanması və ya ödənilməsindəki nöqsanlar, 1%-ni sosial müavinətlərin hesablanması və ödənilməsi məsələləri v.s. təşkil etmişdir. İqtisadiyyatın sahələri üzrə bu pozuntulara daha çox topdan və pərakəndə ticarət, avtomobillərin təmiri (4761), yaşayışın təşkili və ictimai iaşə (1633), emal sənayesi (745), səhiyyə və sosial xidmət sahəsi (1102), tikinti (859) və təhsil müəssisələrində (401) rast gəlinmişdir. İşəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin daha çox qeyri-dövlət müəssisələrində pozulduğu (12735 qanun pozuntusu və ya bütün pozuntuların 85%-i) müəyyənləşdirilmişdir.

2013-cü ilin 11 ayı ərzində əmək müqaviləsi bağlanmadan işlərin və xidmətlərin yerinə yetirilməsinə qeyri-qanuni cəlb olunmuş 7215 şəxslə əmək müqaviləsinin bağlanılması təmin olunmuşdur ki, onlardan 5869 nəfəri (və ya 82%) özəl qurumların payına düşür. Araşdırma zamanı qanunvericiliyin tələbləri pozularaq işdən azad edilmiş 31 nəfərin öz əvvəlki işinə qaytarılmasına nail olunmuşdur.

Hesabat dövründə törədilmiş inzbati xətaya görə 363 vəzifəli və hüquqi şəxs barədə inzibati qərar qəbul edilərək 628780 manat məbləğində cərimə tətbiq olunmuşdur. İqtisadiyyatın sahələri üzrə cərimələrin tətbiq olunması təhlil edilərkən onun daha çox topdan və pərakəndə ticarət, avtomobillərin təmiri (97790 manat və ya cərimələrin 16%-i), tikinti sektoru (95660 manat və ya 15%), yaşayışın təşkili və ictimai iaşə (66450 manat və ya 11%), istirahət, əyləncə və incəsənət sahəsi (2000 manat və ya 1%), emal sənayesi (31970 manat və ya 1 %) v.s. aid olması müəyyən edilmişdir. Cərimələrin böyük əksəriyyəti (595720 manat və ya 87%) qeyri-dövlət müəssisələrin vəzifəli şəxslərinə tətbiq olunmuşdur.

Vətəndaşlara ödənilməsi təmin edilmiş gecikdirilmiş ödəmələrin ümumi məbləği 634917 manat olmuşdur. Bu məbləğin təxminən 93 faizi (589853 manat)- əmək haqqı, 4,5 faizi (28952 manat) -sosial müavinətlər və kompensasiyalar, 2,5 faizi isə (16112 manat) - zərər əvəzi ödənclərdən ibarət olmuşdur. Gecikdirilmiş ödəmələrin 84%-i qeyri-dövlət sektorunun payına düşmüşdür. İqtisadiyyat sahələri üzrə işçilərə

ödənilməsi təmin edilmiş ödənclərin əksəriyyəti tikinti (36,4%), emal sənayesi (4,6%) və nəqliyyat (4,3%) sektoruna aid müəssisələrdə həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 19-cu bəndinin (Uşaq əməyinə dair müvafiq beynəlxalq konvensiyalardan, həmçinin Beynəlxalq Əmək Təşkilatının sənədlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üzrə tədbirlərin gücləndirilməsi) icrası olaraq müəssisə, idarə və təşkilatlarda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti həyata keçirilərkən 4 halda ( 2 halda – tikinti, 1 halda topdan və pərakəndə ticarət, avtomobillərin təmiri və 1 halda- iqtisadiyyatın digər sahələrində xidmətin göstərilməsi sahəsinə aid olmuşdur) yaşı 18-dən az olan işçilərin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 247-255-ci maddələri ilə nəzərdə tutulmuş tələblər üzrə əmək hüquqlarının işəgötürənlər tərəfindən pozulması aşkar edilmiş və onların aradan qaldırılması təmin edilmişdir.

Bundan başqa, 2 halda 15 yaşına çatmamış şəxslərin işə cəlb edilməsinə görə sahibkarlar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 53.9-cu maddəsi ilə 2000 manat məbləğində cərimə olunmuşlar.

Hesabat dövründə istehsalatla əlaqəli sayılmış 155 bədbəxt hadisənin təhqiqatı aparılmışdır (onlardan 13-ü qrup halında baş vermişdir). Bu hadisələr nəticəsində 71 nəfər ölmüş və 120 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Tikinti sektorunda – 51 bədbəxt hadisə baş vermiş və bu hadisələr zamanı xəsarət alanların sayı 28 nəfər**,** ölənlərin sayı isə 27 nəfər olmuşdur (ötən il tikintidə 49 nəfər ölmüşdü). Tikinti sektorunda hələ də iş qəzası nəticəsində ölənlərin sayı digər sahələrdən daha çoxdur (respublika üzrə qeydə alınmış istehsalatda baş vermiş bədbəxt hadisə nəticəsində ölənlərin 32%-i tikintiyə aid olmuşdur).

## ***Kadrların seçilməsi və yerləşdirilməsi***

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya 2013-cü il ərzində inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan 152 vakant yer barədə məlumat təqdim edilmişdir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Nazirliyin Aparatına, strukturuna daxil olan qurumlarına ümumilikdə 127 nəfər, o cümlədən, 73 nəfər stajçı kimi, 20 nəfər sınaq müddəti ilə, 34 nəfər isə daimi dövlət qulluğuna qəbul edilmişdir. Daimi dövlət qulluğuna qəbul edilən dövlət qulluqçularına müvafiq ixtisas dərəcələri verilmişdir.

Əmək funksiyalarını yerinə yetirərkən yol verdikləri nöqsanlara görə 145 nəfər dövlət qulluqçusu barəsində müvafiq intizam tənbehi tədbirləri görülmüşdür. Belə ki, 128 nəfər barəsində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 25.2.1-ci maddəsi, 8 nəfərə 33.1.6-cı, 6 nəfərə 25.2.2.-ci, 3 nəfərə isə 25.2.5-ci maddələri tətbiq edilmişdir.

## ***Beynəlxalq əməkdaşlıq sahəsində***

2013-cü ilin aprelində Bakı şəhərində "İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzv dövlətlərinin əmək nazirlərinin 2-ci Konfransı" keçirilmişdir. İƏT çərçivəsində əmək,

məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığı təşviq edən Çərçivə sənədi və digər siyasi sənədlər qəbul olunmuşdur. İƏT-in 56 üzv ölkəsindən 36 ölkənin təmsilçiləri (15 nazir, 9 nazir müavini), ümumiyyətlə 200-dən çox nümayəndə, o cümlədən beynəlxalq təşkilatların, aidiyyəti dövlət qurumlarının nümayəndələri tədbirdə iştirak etmişlər. Konfrans zamanı Bakı şəhərində Əmək Mərkəzinin yaradılması təşəbbüsü irəli sürülmüşdür

2013-cü il iyun ayında Cenevrə şəhərində Beynəlxalq Əmək Konfransının 102-ci Sessiyasının işində əmək və əhalinin sosial müdafiəsi nazirinin başçılığı ilə nümayəndə heyəti iştirak etmişdir. Sessiyada BƏT-in Baş direktorunun yeni demoqrafik vəziyyətdə məşğulluq və sosial müdafiə, davamlı inkişaf və layiqli əmək, sosial dialoqun artan rolu barədə hesabatı dinlənilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyəyə rəsmi səfəri çərçivəsində 2013-cü il noyabrın 13-də Azərbaycan və Türkiyə hökumətləri arasında işçi qüvvəsinin qarşılıqlı əmək fəaliyyətinə dair Saziş, həmçinin Azərbaycan və Türkiyə hökumətləri arasında əmək, sosial müdafiə və məşğulluq sahəsində əməkdaşlığa dair Saziş imzalanmışdır.

Azərbaycan Respublikasının qoşulduğu Beynəlxalq Əmək Təşkilatının 14, 47, 52, 87, 98, 106, 140, 142, 144, 149 və 183 nömrəli Konvensiyalarının bu təşkilat tərəfindən sorğu edilən dövr ərzində respublikamızda tətbiqinə dair növbəti dövri Hökumət hesabatı, eləcə də BƏT-in Ekspertlər Komitəsinin sorğularına cavablar müvafiq qaydada BƏT-in Cenevrədəki mənzil-qərargahına təqdim olunmuşdur.

Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş "Dəyişdirilmiş Avropa Sosial Xartiyası"nın 11 və 14-cü maddələri üzrə müvafiq dövlət qurumlarının məlumatları əsasında tərtib edilmiş Azərbaycan Respublikasının (altıncı) məruzəsinin son mətni Avropa Şurasına təqdim edilməsi üçün zəruri prosedurların həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə təqdim edilmişdir.

2013-cü ilin iyulunda Bakı şəhərində Avropa Şurasının I Baş Direktorluğunun Avropa Sosial Təhlükəsizlik Məcəlləsi və Avropa Sosial Xartiyası şöbəsi tərəfindən Avropa Sosial Xartiyası üzrə seminar təşkil edilmişdir. Seminarın məqsədi kollektiv şikayətlər sistemini təmin edən əlavə protokolun ratifikasiyasını təşviq etmək və Xartiyanın hüquqi tələbləri barədə hökumət rəsmilərinin və qanunvericilik sahəsinin digər mütəxəssislərini məlumatlandırmaqdan ibarət olmuşdur.

## ***Elmi-tədqiqat sahəsi üzrə***

"Əlilliyi olan insanların iqtisadi fəallığının artırılması və sahibkarlıq fəaliyyəti ilə məşğul olması yollarının tədqiqi" mövzusu üzrə müasir şəraitdə əlillərin iqtisadi fəallığı əsaslandırılmış, əlillərin əmək və sahibkarlıq fəaliyyəti ilə məşğulluğunun iqtisadi və hüquqi aspektləri öyrənilmişdir. Əlillərin iqtisadi fəallığı və sahibkarlıq fəaliyyəti ilə məşğulluğu vəziyyətinin öyrənilməsi məqsədilə Şəki-Zaqatala zonasında 603 nəfər əlil arasında sosioloji sorğu keçirilmiş və nəticələr təhlil edilmiş, əlilliyi olan insanların iqtisadi fəallığının artırılması və sahibkarlıq fəaliyyəti ilə məşğul olması istiqamətində təkliflər işlənmişdir.

"Büdcə sferasında əməyin ödənilməsinin təhlili və qiymətləndirilməsi" mövzusu üzrə büdcə sferasının strukturu və sosial-əmək münasibətlərinin spesifik xüsusiyyətləri

tədqiq edilmiş, 2010-2012-ci illərdə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda fəaliyyət növləri üzrə muzdlu işçilərin sayı və strukturu, orta aylıq əməkhaqqı və onun diferensiasiyası, işçilərin orta aylıq əməkhaqqının iqtisadiyyat və sənaye üzrə müvafiq göstəricilərlə müqayisəsi və qeyri-dövlət sektorunun fəaliyyət növləri üzrə nisbətləri təhlil edilmiş, büdcədən maliyyələşən təşkilatlarda əməyin ödənilməsinin tarif sistemi araşdırılmış və qiymətləndirilmişdir.

«2009-cu il Ümumrespublika siyahıyaalınma materiallarının təhlili və demoqrafik inkişafın perspektiv meyllərinin müəyyənləşdirilməsi» mövzusu üzrə Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalınma materialları işlənib sistemləşdirilmiş, mövcud demoqrafik vəziyyət öyrənilmiş, 1999-cu il siyahıyaalınma materialları ilə müqayisəli təhlil əsasında demoqrafik proseslərdə baş verən meyllər müəyyənləşdirilmiş, 2050-ci ilədək əhali sayının, ümumi nəsilvermə əmsalının, demoqrafik yük əmsallarının proqnoz hesablamaları aparılmışdr.

"Azərbaycan Respublikasında əməyin mühafizəsinin idarə edilməsinin təkmilləşdirilməsi, beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolları" mövzusu üzrə Respublika iqisadiyyatının müxtəlif sahələrində əməyin mühafizəsinin və onun idarə olunmasının müasir vəziyyəti təhlil edilmiş, əsas problemlər müəyyənləşdirilmiş, əməyin mühafizəsinin idarə edilməsinin təkmilləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində təkliflər irəli sürülmüşdür.

Müvafiq ixtisaslar üzrə doktoranturada hazırda 6 doktorant, 14 dissertant öz elmi işləri üzərində çalışırlar. Hesabat dövründə bir doktorant iqtisad üzrə fəlsəfə doktorluğu alimlik dərəcəsini almış, iki doktorant dissertasiya işini müdafiə etmişdir.

Nazirliyin struktur bölmələrində çalışan dövlət qulluqçularının peşəkarlığının artırılması davamlı şəkildə həyata keçirilmişdir.

2013-cü il ərzində təşkil edilmiş ixtisasartırma kurslarında 28 qrup təşkil etməklə 574 nəfər mütəxəssis məşğələlərdə iştirak etmişdir. Bunların 21 qrup üzrə 468 nəfəri rayon və şəhər Əhalinin sosial müdafiəsi mərkəzlərindən dəvət olunmuş mütəxəssislər olmuşdur.

## ***Vətəndaşların müraciətlərinə baxılması***

2013-ci ildə nazirliyə 43437 ədəd vətəndaş müraciəti daxil olmuş, aidiyyatı üzrə icraya verilmiş və qanunvericiliyə uyğun olaraq müraciətlərdə qaldırılan məsələlər araşdırılmış və müəyyən edilmiş müddətlərdə cavablandırılmışdır. Daxil olan vətəndaş müraciətləri üzrə statistik təhlillər aprılaraq müvafiq tədbirlər görülmüşdür.

"2013-cü ildə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu qrafiki"nə uyğun olaraq rəhbərlik tərəfindən 9 bölgədə vətəndaşların qəbulu keçirilmişdir, 800-dən çox vətəndaş qəbul edilmişdir. Qəbul zamanı nazirliyin fəaliyyət dairəsinə aid sahələrlə bağlı daxil olan şikayət xarakterli müraciətlər vətəndaşların və nazirlikdə yaradılan İctimai Şuranın üzvlərinin iştirakı ilə yerindəcə araşdırılmışdır.

Nazirliyin rəsmi www.mlspp.gov.az veb saytına və info@mlspp.gov.az elektron ünvanına ümumilikdə 1353 müraciət, "142-Qaynar xətt"inə 8808 zəng daxil olmuşdur. Daxil olan sorğular qanunvericilik çərçivəsində ətraflı izah edilərək operativ

cavablandırılmış, şikayət xarakterli müraciətlər isə rəhbərliyin dərkənarı ilə araşdırılaraq müvafiq inzibati tədbirlər görülmüşdür.

Hesabat dövrü ərzində 206 press reliz və məlumatlar hazırlanaraq ölkə KİV-də yayılmışdır.

Nazirliyin rəsmi internet səhifəsindəki «Xəbərlər» bölümündə 145-dən çox, «Press-relizlər» bölümündə isə 200-dən artıq məlumat təqdim edilmişdir.